**J.S.İSMAYILOVA**
*e-mail: jale.ismailova@bk.ru*
**:https://orcid.org/0009-0005-5092-6666**

**Bakı Slavyan Universiteti**
(Bakı şəh., S.Rüstəm küç., 33)

**10.62021/0026-0028.2024.4.031**

# MÜXTƏLİFSİSTEMLİ DİLLƏRDƏ İNFİNİTİV

***Xülasə.*** *İnfinitivin tərz kateqoriyası ingilis dilinə xasdır. Hər iki dildə infinitiv spesifik feli xüsusiyyətlərə malikdir. İngilis dilində feli birləşmələr, Azərbaycan dilində isə ismi birləşmələr kimi təqdim olunur. İnfinitivin nominativ funksiyaları hər iki dildə məhduddur və bu, tarixi inkişafla bağlıdır. Azərbaycan dilində bu funksiyalar həm morfoloji, həm də sintaktik səviyyədə, ingilis dilində isə yalnız sintaktik səviyyədə reallaşır.*

***Açar sözlər:*** *İnfinitv hal, morfoloji xüsusiyyətlər, cümlə quruluşu*

Ümumi dilçilikdə məsdər, feli isim, felin substantiv forması kimi öyrənilən infinitiv linqvistik təbiəti və inkişaf tarixi ilə maraq doğurur. Azərbaycan və ingilis dillərində infinitiv şəxssiz feil forması olub, morfoloji xüsusiyyətlərə malikdir. Həm Azərbaycan, həm də ingilis dilində infinitiv spesifik formal-qrammatik xüsusiyyətlərə malikdir. İngilis dilində infinitiv göstəricisi feildən əvvəl gəlir: to speak – danışmaq, to write – yazmaq.

İnfinitiv hər iki dilçiliyi üçün ən mürəkkəb kateqoriya hesab olunur. O, dünyanın bir çox dillərində ikili xassəyə malikdir. Bəzi dilçilər infinitivin isimdən, digərləri isə feli isimdən əmələ gəlməsini iddia edirlər. V.D.Arakin «История английского языка» əsərində bildirir ki, qədim ingilis dilində infinitiv hal şəkilçisini itirmiş, yalnız yönlük hal şəkilçisi *-anne* (-*enne*) saxlanılmışdır. Bu forma *to* sözönü ilə işlənirdi: “to bindan” – bağlanmaq, “to entanne” – yemək. Yayılan forma *-an* şəkilçisi ilə bitən hallanmayan infinitivdir: “bindan”, “etan”.

**Müasir ingilis və azərbaycan dillərində infinitivin xüsusi hallarda işlənməsi.**

Azərbaycan dilində məsdər sadə feil kökü və *-maq/-mək* şəkilçiləri ilə yaranır. Tarixən bu şəkilçilər feli sifət şəkilçiləri üzərinə yönlük hal şəkilçisi artırılaraq məqsədli məsdər (supin) funksiyasını daşıyıb. Yəni infinitivin əsas mənası məqsəd (supin) olmuşdur.

İngilis dilində infinitivin qarşısında "to" hissəciyi işlənir. Bəzi dilçilər bunu ədat, bəziləri morfem və ya sadəcə formal göstərici kimi qəbul edirlər. Müasir ingilis dilində *to*-suz işlənən formalar da var. Alimlər bu formaları "bare infinitive" və ya "plain infinitive" adlandırırlar.

İnfinitivin işlənməsi cümlənin semantik və qrammatik strukturu ilə bağlıdır. İngilis dilində "split infinitive" anlayışı da mövcuddur ki, bu zaman *to* ilə infinitiv arasına sözlər daxil olur [7].

**Müasir Azərbaycan və ingilis dillərində infinitivin verbal xüsusiyyətləri.**

İnfinitiv həm morfoloji, həm leksik-qrammatik, həm də kontekstual mənaları özündə cəmləyən qrammatik kateqoriyadır. Azərbaycan dilində infinitiv ikili təbiətə malikdir, yəni onun xüsusiyyətlərinin bir qismi adlara, bir qismi isə feillərə aiddir. V.Əliyev Azərbaycan dilində məsdərin feli xüsusiyyətlərini belə qruplaşdırmışdı:

1) Təsdiqlik-inkarlıq; 2) Təsirlik-təsirsizlik; 3) Növ; 4) İdarə etmə.

R.Mədətova isə məsdərin feli xüsusiyyətlərindən danışarkən aşağıdakı kateqoriyaları əsas götürür:

1) Təsirlik-təsirsizlik; 2) İnkarlıq; 3) Növ.

***Təsirlik-təsirsizlik kateqoriyası.*** Məsdərdə təsirlik felin kökündən gəlir. *-Maq, -mək* şəkilçisinin fel kökünə qoşulması ancaq təsriflənməyən formalardan birini – məsdəri əmələ gətirir, bu isə feildəki əvvəlki təsirlik-təsirsizlik, leksik-qrammatik mənanı dəyişmir.

***İnkarlıq kateqoriyası.*** Bu kateqoriya həm məntiq, həm də qrammatik kateqoriyadır. Azərbaycan dilində inkarlıq kateqoriyasının əsasən üç ifadə vasitəsi vardır:

1) Leksik; 2) Morfoloji; 3) Sintaktik.

Leksik vasitələrlə inkarlığın ifadəsi əsasən ***yox, deyil, xeyir*** sözləri ilə mümkündür. Azərbaycan dilində infinitiv çox nadir hallarda ***yox*** sözü ilə inkarlıq əmələ gətirə bilir.

Məsələn: Məqsədim oxumaq ***yox***, xaricə getməkdir.

Morfoloji vasitələrlə inkarlığın ifadəsi özünü ***-ma, -mə*** şəkilçilərinin feillərə qoşulmasını göstərir. Bu şəkilçi həm şəxsli, həm də şəxssiz feillərə qoşula bilir.

Məsələn: Arvad öz qulaqlarına inanmamağa başladı. (Y.V.Çəmənzəmənli)

Sintaktik vasitələrlə inkarlığın ifadəsindən danışarkən, A.Aslanov aşağıdakı üç vasitəni əsas götürür:

1) Ekspressiv – kinayəli vasitələrlə inkarlığın ifadəsi;
2) Sual vasitəsi ilə inkarlığın ifadəsi;
3) *Nə* inkar bağlayıcısı ilə inkarlığın ifadəsi.

Danışıq dilinin əsas xüsusiyyətlərindən biri də intonasiyadır. İntonasiya vasitəsilə cümlənin mənasını dəyişmək olur.

Məsələn: Yaxşı, bəs onda nə təhər olsun? Eh, çox lazım imiş onunla danışmaq. (M.İbrahimov)

Sual vasitəsilə inkarlığın ifadə olunduğu cümlələrdə infinitiv tez-tez işlənir.

Məsələn: Yəni belə bir qanunu nəşr etmək lazımdırmı? (S.Hüseyn)

İnkarlığı ifadə etmək üçün ən çox işlənən sintaktik vasitələrdən biri də ***nə*** inkar bağlayıcısıdır. Bu bağlayıcı infinitivlə də işlənir. Məsələn: Nə utanmaq bilirdi, nə qızarmaq. (B.A.Talıblı)

***Növ kateqoriyası.*** Azərbaycan dilçiliyində əsasən 5 növün olması qəbul olunub:

1) məlum növ;
2) məchul növ və ya passiv növ;
3) qayıdış növ;
4) qarşılıqlı növ;
5) icbar növ.

***Qayıdış növ.*** Azərbaycan dilində qayıdış növ *-in/ -ın/ -un/ -ün; -il/ -ıl/ -ul/ -ül* şəkilçiləri ilə əməl gəlir.

***Qarşılıqlı növ.*** Bu növ hərəkətin subyektə və obyektə olan münasibətini bildirir. Bu növü əmələ gətirmək üçün *-iş/ -ış/ -uş/ -üş/ -aş/ -əş* şəkilçilərindən istifadə olunur.

Məsələn: Dərdli başını müəllimin dizi üstə salıb, əsəbi bir hönkürtü ilə ağlaşmağa başladılar. (C.Cabbarlı)

***İcbar növ.*** İcbar növün şəkilçiləri *-dır/ -dir/ -dur/ -dür və -t-* dır. İnfinitivdə icbar növ infinitiv əlamətindən əvvəl yerləşir.

Məsələn: Onun-bunun arasını ***vurdurmaq*** sənin çoxdankı peşəndir. (S.Rəhman)

**Müasir Azərbaycan və ingilis dillərində infinitivin nominativ xüsusiyyətləri.**

Müasir Azərbaycan dilində infinitivin nominativ xüsusiyyətləri aşağıdakılardır:

1) Kəmiyyət kateqoriyası;
2) Hal kateqoriyası;
3) Mənsubiyyət kateqoriyası;
4) Xəbərlik kateqoriyası.

Kəmiyyət kateqoriyası mücərrəddir: sayılması həm mümkün olan, həm də mümkün olmayan kəmiyyəti əhatə edir. Azərbaycan dilində kəmiyyət kateqoriyasını ifadə edən cəm şəkilçiləri *-lar/-lər/ -lıq/-lik/-luq/-lük/ -lı/ -lu/ -lü/* -dür. Yalnız *-lar/-lər* infinitivə artırıla bilir [1].

İnfinitiv və hal kateqoriyası. Azərbaycan dilində altı hal var, hər birinin şəkilçisi və sualı mövcuddur.

**Adlıq hal** subyekti bildirir, infinitiv bu halda morfoloji əlamət qəbul etmir.

**Yiyəlik halın** şəkilçiləri *-ın/-in/-un/-ün*-dür, infinitiv bu şəkilçiləri qəbul edir, amma şahı-mənsub münasibəti olmur.

**Yönlük hal** *-a/-ə* ilə, təsirlik hal *-ı/-i və nı/-ni/-nu/-nü* ilə ifadə edilir.

**Yerlik hal** *-da/-də*, çıxışlıq hal *-dan/-dən* ilə ifadə olunur və hərəkətin səbəbini bildirir.

İnfinitiv mənsubiyyət və xəbərlik kateqoriyalarını qəbul edir. Mənsubiyyət şəkilçiləri əşya ilə şəxs arasında münasibət bildirir. Xəbərlik kateqoriyası işin icrasını ifadə edir, xəbərlik şəkilçisi olmadan cümlə bitməz.

Azərbaycan dilində infinitivin nominativ xüsusiyyətləri verbal xüsusiyyətlərinə nisbətən azdır və bir tərəfdən tədqiq olunan kateqoriyanın tarixi inkişafı ilə əlaqədardır, digər tərəfdən isə infinitivin nitq hissələri sistemində tutduğu mövqedən asılıdır. Azərbaycan dilində infinitivin nominativ xüsusiyyətləri nisbətən geniş əhatə dairəsinə malik olduğu halda, ingilis dilində bu əhatə dairəsi daha məhduddur [5].

İngilis dilində infinitivin nominativ xüsusiyyətləri özünü yalnız sintaktik səviyyədə büruzə verir. İngilis dilində infinitivin nə hal, nə mənsubiyyət kateqoriyası var. İngilis dilində infinitiv ismin çıxış etdiyi bütün funksiyalarda işlənir. Belə ki, infinitiv isim kimi aşağıdakı sintaktik funksiyalarda iştirak edir: mübtəda, tamamlıq, predikativ, təyin, zərflik.

***Mübtəda funksiyasında*** infinitiv həmişə ***to*** hissəciyi ilə işlənir.

Məsələn: ***To walk*** in the seaside is pleasant.

***Predikativ fuksiyasında*** da infinitiv *to* hissəciyi ilə işlənir. Əsasən ismin funksiyasını izah edir. Ona görə də bu növ cümlələrdə infinitiv yalnız müəyyən abstrakt mənalı isimlərlə, məsələn: ***aim, desire, difficulty, hope, idea*** və s. işlənir.

Məsələn: Our plan is ***to visit*** Turkey this year.

***Tamamlıq funksiyasında*** infinitiv əsasən aşağıdakı feillərdən sonra işlədilir: ***to ask, to begin, to choose, to forget*** və s.

***Təyin funksiyasında*** infinitive əsasən əvəzliklərlə işlənir. Eyni zamanda **what** sual əvəzliyi ilə də işlənə bilir.

Məsələn: What is there ***to finish***? – Orada başa vurulası nə var?

***Zərflik funksiyasında*** məqsəd, tərzi-hərəkət, müqayisə, nəticə və şərt mənalarını bildirmək üçün işlənir.

Məsələn: Lanny reached down ***to pick up*** his cases. (Abrahams)

Bu **işin aktuallığı** ondan ibarətdir ki, müxtəlifdillərdə infinitiv formasının bizim dilimizə müqayisədə aparılan araşdırmalara yeni bir işıq tutur.

**İşin məqsədi** Azərbaycan və ingilis dillərində infinitivin xüsusiyyətlərini müqayisə etməkdir.

**İşin nəticəsi olaraq** müxtəlifsistemli dillərdə infinitiv, felə aid olub həm nominativ, həm də verbal xüsusiyyətlər daşıyır, yəni ikili xassəyə malikdir. Azərbaycan dilində infinitiv -*maq/-mək* şəkilçisi ilə, ingilis dilində isə to hissəciyi ilə ifadə olunur. İngilis dilində parçalanmış infinitiv də mövcuddur.

**Tədqiqatın obyekti** infitivin xüsusiyyətlərini müəyyənlişdərməkdir.

**Tədqiqatın predmeti** infitiv və onun müxtəlif dillərdə tətbiqi.

**Tədqiqatın elmi və nəzəri əhəmiyyəti** ondan ibarətdir ki, infinitiv Azərbaycan dilində vacib olduğu kimi digər dillərdə də vacibdir. Aparılan tədqiqatda, bu barədə xırdalıqlara toxunularaq yeni nüasnlar nəzərdən keçirilmişdir.

**Ədəbiyyat**

1. Mirzəzadə, H. Azərbaycan dilinin qrammatikası / H.Mirzəzadə. – Bakı, – 1980.
2. Musayev, O. İngilis dilinin qrammatikası / O.Musayev. – Bakı: Maarif, – 1996.

3. Quliyev, H. Müxtəlifsistemli dillərdə feillərin semantik təsnifatı / H.Quliyev. – Bakı, – 2001.
4. Hüseynzadə, M.H. Müasir Azərbaycan dili, Morfologiya, II hissə / M.H.Hüseynzadə. – Bakı, – 1983.
5. Xanbutayeva, L.M. Müasir Azərbaycan və ingilis dillərində infinitiv / L.M.Xanbutayeva. – Bakı, – 2003.
6. Аракин, В.Д. Инфинитив. Сравнительно-историческая грамматика тюркских языков, Морфология / В.Д.Аракин. – 1988.
7. Барабаш, Т.А. Грамматика английского языка / Т.А.Барабаш. – Москва, – 1983.
8. Блох, М.Я. Теоретическая грамматика английского языка / М.Я.Блох. – Москва, Высшая школа, – 1983.
9. Kobrina, E.A. An English Grammar, Morphology / E.A.Kobrina, E.A.Korneyeva, M.I.Ossovskaya, K.A.Guzeyeva. – 1985.
10. Ilyish, B.A. History of the English Language / B.A.Ilyish. – Leningrad: Izdatelstvo, – 1973.

**J.S.Ismayilova**

**Infinitive in Multiple Languages**

***Summary***

The infinitive mood category is unique to English. In both languages, the infinitive has specific verbal features. In English, it appears as verbal phrases, while in Azerbaijani, it appears as nominal phrases. The nominative functions of the infinitive in both languages are limited, linked to historical development. In Azerbaijani, these functions manifest at both morphological and syntactic levels, while in English, they appear only at the syntactic level.

***Key words:*** *Infinitive case, morphological features, sentence structure*

**Ж.С.Исмаилова**

**Инфинитив в языках разных систем**

***Резюме***

Категория инфинитива характерна для английского языка. В обоих языках инфинитив обладает специфическими глагольными особенностями. В английском языке он представлен как глагольные сочетания, в азербайджанском – как именные сочетания. Номинативные функции инфинитива в обоих языках ограничены и связаны с его историческим развитием. В азербайджанском языке они проявляются как на морфологическом, так и на синтаксическом уровнях, а в английском – только на синтаксическом уровне.

***Ключевые слова:*** *Инфинитивный падеж, морфологические особенности, структура предложения*

*Rəyçi: b/m. S.E.Quliyeva*

*Redaksiyaya daxil olub: 08.10.2024*